## Şərqşünaslıq fakültəsi üzrə elmi fəaliyyətin yekunları

2022-ci hesabat ili Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin həyatında Şərqşünaslıq fakültəsinin yaranmasının 100 illik yubileyinin keçirildiyi il kimi yadda qalmışdır. Ölkədə təhsil strategiyasının genişləndirilməsi, təhsilin səviyyəsinin yüksəldilməsi ilə bağlı olaraq ölkə başçısının davamlı çıxışları universitetin, o cümlədən fakültənin həyatına da sirayət etmişdir.

Fakültədə 4 kafedra, 1 laboratoriya (“İslamşünaslıq” Elmi laboratoriyası) fəaliyyət göstərir.

Ərəb filologiyası kafedrasında 33 professor-müəllim çalışır.

2022-ci ildə Ərəb filologiyası kafedrasının professor-müəllim heyəti 2020-2022-ci illər üçün nəzərdə tutulmuş “Ərəb və ibri dilləri, ərəb və yəhudi ədəbiyyatının aktual problemləri”nə uyğun olaraq elmi-tədqiqat işləri aparmışlar. Bu tədqiqatlar müasir ərəb və ibri dillərinin nəzəri məsələlərinin öyrənilməsi, ərəb və ibri dilçiliyinin öyrənilməmiş və mübahisəli məsələlərin tədqiqi, Orta əsr ərəb və yəhudi ədəbiyyatı, müasir ərəb və yəhudi ədəbiyyatının nəzəri məsələlərinin öyrənilməsi, ərəb və ibri dillərinin səs cəhətinin öyrənilməsi, morfoloji, semantik, leksik problemlərin araşdırılması, ayrıca ərəb və ibri dillərinin fonetika və fonologiya məsələlərinin tədqiqi, o cümlədən ərəb dili və ədəbiyyatı abidəsi kimi Qurani-Kərimlə bağlı elmi tədqiqatlar, fərqli qiraətlərin müqayisəli təhlili, Quranın qeydə alınması tarixinin dövrlərə ayıraraq öyrənilməsi, yazılı müshəflərdəki fərqlərin öyrənilməsini əhatə edir və bu sahələrdə mövcud boşluqların doldurulmasına xidmət edir.

Kafedra kollektivi tərəfindən 1 məqalə xarici jurnallarda, 7 məqalə respublikada nəşr olunan jurnallarda, 4 məqalə beynəlxalq indekslənən jurnallarda, 1 tezis respublika konfransında, beynəlxalq konfransda çap olunan tezis 19, respublikada keçirilən konfransda 6 tezis, 5 dərslik, 2 proqram, metodik vəsait  çap olunmuşdur. .

Kafedranın 1 əməkdaşı filologiya üzrə fəlsəfə doktoru proqramı üzrə müdafiə etmişdir, 1 əməkdaş dosent elmi adı almışdır.

Ümumi toplanan bal 1891 təşkil edir.

Ərəb filologiyası kafedrası nəzdində “İslamşünaslıq” elmi-tədqiqat mərkəzi fəaliyyət göstərir. Mərkəzdə 8 elmi işçi çalışır.

2022-ci ildə “İslamşünaslıq” elmi-tədqiqat mərkəzinin heyəti 2020-2022-ci illər üçün nəzərdə tutulmuş “Din fəlsəfəsi” probleminə uyğun olaraq elmi-tədqiqat işləri aparmışlar.

Kafedranın professor-müəllim heyəti 6 məqalə respublikada çap etdirmiş,

beynəlxalq konfransda çap olunan konfrans materialı 2, respublikada çap olunan 4 tezis təqdim edilmişdir.

2022-ci hesabat ili ərzində İran filologiyası kafedrasının əməkdaşlarının elmi-tədqiqat işləri, elmi araşdırmaları Bakı Dövlət Universiteti, Azərbaycan Milli Elmlər Akademiyası, Respublikanın digər ali məktəblərinin elmi məcmuə və jurnallarında və xaricdə nəşr edilmiş məqalə və tezislərdən, qələmə alınmış elmi əsərlərdən ibarətdir. Ümumilikdə 2022-ci ildə İran filologiyası kafedrasının professor-müəllim heyəti tərəfindən 1 monoqrafiya, 1 dərslik, 1 proqramm, 4 məqalə xaricdə, 15 məqalə respublikada, beynəlxalq indekslənən jurnalda 2 məqalə, 17 tezis beynəlxalq elmi konfransda çap olunmuşdur.

Kafedrada 26 müəllim Cəmi 1538 bal toplanılıb

Türk filologiyası kafedrasında 25 professor- müəllim heyəti çalışır. 2020- 2022-ci ildə kafedrada "Müasir türk dilində sintaktik vahidlərin təsnifatı və ədəbiyyatda əks olunması" mövzusu üzrə tədqiqat işi aparılmışdır.

Kafedranın müəllimləri tərəfindən 2 kitab (1 monoqrafiya, 1 lüğət), 9 elmi məqalə respublikada, 1 məqalə xaricdə və 25 tezis (respublika və beynəlxalq konfransda) çap olunmuşdur. Cəmi 1277.bal toplanıb.

Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasında 10 müəllim (7 yerli və 3 xarici ölkə vətəndaşları), 3 nəfər isə saathesabı qaydada işləyir. Onlardan bir nəfəri elmlər doktoru, professor, bir baş müəllim, beş nəfəri isə müəllim işləyirlər. Xarici vətəndaşlar kafedrada müqavilə əsasında çalışırlar. Müqavilənin şərtlərinə görə xarici müəllimlər ancaq tədris fəaliyyəti ilə məşğuldurlar. 2020-2022-ci ildə kafedrada "Altayşünaslıq kontekstində Azərbaycan dili ilə yapon və Koreya dillərinin etimoloji tədqiqinin nəzəri məsələləri" problem üzrə tədqiqat işi aparılmışdır.

Kafedranın müəllimləri tərəfindən 1 dərs vəsaiti, 1 məqalə xaricdə, 4 məqalə respublikada, 4 tezis beynəlxalq elmi konfransda çap olunmuşdur. Kafedra tələbələr üçün yapon və Koreya dili üzrə natiqlik müsabiqəsi keçirmişdir. Cəmi 394,5 bal toplanılıb.

**2022-ci ildə Şərqşünaslıq fakültəsində keçirilən tədbirlər:**

1. 22.02.2022 – "Urdu dilinin yaranma tarixi və Hindistanda urdu dilinin inkişaf istiqamətləri" mövzusunda elmi seminar.
   Məruzəçi : Hindistan Təhsil Nazirliyi yanında Milli Təhsil Tədqiqatları və Təlim Şurasında məktəb dərsliklərinin urdu nəşrləri üzrə məsul redaktoru, yazıçı-publisist Dr. Pərviz Əhməd Şəhriyar.

Xülasə:Urdu dilinin yaranma tarixi və Hindistanda urdu dilinin inkişaf istiqamətləri, Hindistanda nəşr olunan kitablar, elmi jurnallar haqqında məlumat verib. Bildirdi ki, urdu dili Hindistan rəsmi dillərindən biridir və urdu dilində müasir dövrün tələblərinə uyğun kitab və jurnallar çap olunmaqla yanaşı, elektron nəşrlər də öz aktuallığını qoruyub saxlamaqdadır.

2. 23.02.2022 - "Altayşünaslıq kontekstində yapon dili feilinin lüğət formasının funksional-semantik xüsusiyyətləri" mövzusunda elmi seminar.

   Məruzəçi: Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının müdiri, professor O.Cəlilbəyli.

   Xülasə: Məruzəçi bildirdi ki, altayşünaslıq kontekstində Azərbaycan və yapon dillərinin materialları əsasında feilin lüğət formasının və onun qrammatik və funksional-semantik xüsusiyyətləri böyük maraq doğurur. Yapon dilində feilin lüğət formasının özündə məsdər və indiki-gələcək zamanı ehtiva etməsi Avropa dilçiliyi, o cümlədən türk dilçiliyi baxımından fərqləndiyi üçün mətn tərcüməsi zamanı dolaşıqlıq yaradır. Bundan başqa, yapon dili dərsliklərində neytral-nəzakətli danışıq üslubunda istifadə edilən feilin ます/*masu* forması da məsdər və indiki-gələcək zamanda tərcümə edilir. Avropa dilçiliyi nöqteyi-nəzərindən bütün bu qeyri-adilik yapon dilini öyrənən xaricilər üçün böyük dolaşıqlıq yaradır. Bu dolaşıqlığı aradan qaldırmaq üçün yeni qrammatik formalar təklf edirik. Təqdimatın sonunda müəllif linqvistik araşdırmalarının nəticəsini cədvəl və sxemlərlə vermişdir.

3. 04.03.2022 - "Türkiyə Türkçəsində mürəkkəb feillərin qrammatik,leksik-semantik xüsusiyyətləri və Azərbaycan dilinə tərcümə məsələləri" mövzusunda elmi seminar.

   Məruzəçi : Türk filologiyası kafedrasının dosenti Bənövşə Hacıyeva.

   Xülasə : Türkiyə Türkçəsində və Azərbaycan Türkçəsində feillərin xüsusiyyətləri və kateqoriyaları arasında bənzərliklərin olduqca çox olmasından, onların eyni dil qrupuna, türk dillərinin oğuz yarımqrupuna aid olmasından bəhs etmişdir. Mərüzəçi mürəkkəb feillərin "təsvir feilləri" adlandırılan perifrastik formalarının bəzi nümunələri isitisna olmaqla, yalnız Türkiyə Türkçəsində mövcud olduğunu vurğulamışdır. Türk dilində təsvir feillərinin mürəkkəb feillərin bir qolunu təşkil etməsi və "kurallı birleşik fiiller" adı altında araşdırılması məsələsinə toxunmuş, eləcə də köməkçi feillərin yardımı ilə düzəldilən mürəkkəb feillər və Türk dilində " anlamca kaynaşmış

birleşik fiiller” adlanan frazeoloji birləşmələr müqayisəli şəkildə təhlil edilmişdir. Araşdırmada mürəkkəb feillərin, qrammatik, leksik-semantik xüsusiyyətləri təhlil edilmiş, Azərbaycan dilinə tərcümə məsələləri izah edilmiş və nümunələrlə əsaslandırılmışdır.

4. 04.03.2022 - Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin və Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsinin təşkilatçılığı ilə “Müharibənin əsas cəbhəsi - diplomatiya” mövzusunda dəyirmi masa.

   Xülasə : İlk olaraq Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan çıxış edərək diplomatiya sahəsinin önəmindən və ölkə tarixində diplomatik uğurlar haqqında danışmışdır. Növbəti olaraq çıxış edən Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının müəllimi, Şərqşünaslıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, dosent Heybət Heybətov dəyirmi masa ilə bağlı fikirlərini səsləndirmiş və olduqca maraqlı mövzu əsasında fikir mübadiləsini yüksək qiymətləndirmişdir. Şərqşünaslıq fakültəsinin elmi işlər üzrə dekan müavini, dosent Nigar İsmayılzadə Şərqşünaslıq fakültəsinin Bakı Dövlət Universitetinin digər fakültələri ilə sıx əməkdaşlıq etməsindən, eyni zamanda birgə elmi seminarlar, dəyirmi masalar və müxtəlif tədbirlər keçirtməsinin əhəmiyyətini qeyd etmiş və bu əməkdaşlığın daha da inkişaf etdirilməsini vurğulamışdır. Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsi, Beynəlxalq münasibətlər kafedrasının müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru Eldar Cəfərov məruzəsində Azərbaycanın 44 Günlük Vətən müharibəsində qazandığı diplomatik uğurlar haqqında ətraflı şəkildə danışmışdır. Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsinin II kurs tələbəsi Nigar Allahverdiyeva tarix boyu diplomatik yolla həll olunmuş müharibələr, məşhur diplomatlar haqqında slayd üzərində geniş şəkildə çıxış etmişdir. Şərqşünaslıq fakültəsinin Regionşünaslıq (Ərəb ölkələri üzrə) IV kurs tələbəsi Nərmin Nuriyeva çıxışında Şərq ölkələrinin Azərbaycana diplomatik dəstəyinin göstəriciləri haqqında geniş şəkildə məlumat vermişdir.

5. 14.03.2022 - “XX əsrin II yarısında İranda ədəbi mühit” mövzusunda elmi seminar.

   Məruzəçi : İran filologiyası kafedrasının müəllimi Nigar Babazadə.

   Xülasə : İranda XX əsrin ikinci yarısında ədəbi mühitin İslam inqilabı dövrünə təsadüf etdiyindən, İranda ictimai-siaysi vəziyyət, hakimiyyətin dəyişməsinin

ədəbiyyatda öz əksini tapmasından və həmin dövrdə poeziyanın mənəvi zənginlik axtarışında olmasından bəhs etmişdir. Həmin dövrdə İran ədəbi həyatı siyasiləşmə ilə xarakterizə olunur. Məruzəçi öz çıxışında şairlərin tarixi hadisələrin real aspektdən dərk edilməsi istiqamətində xalqı maarifləndirmək, onlara yeni ideyalar aşılamaq, xalqı mübariz olmağa səsləmək barədə məlumat vermiş, poeziyanın sadəcə estetik təsirin göstəricisi deyil, eyni zamanda mühüm maarifləndirici əhəmiyyət daşımasını qeyd etmiş və bu düşüncəni xalqa təlqin etdiklərini, şeirlərdən nümunələr gətirərək təhlil etmişdir. Məruzəçi sonda qeyd etmişdir ki, inqilabdan əvvəlki dövr İran şairlərinin bir qisminin əsərlərində ənənələrə sadiq qalaraq eşq, şərab, mistikanı tərənnüm etsələr də, digər tərəfdən xalqı yeniliyə səsləyən, yeni ruhda, yeni mövzularda əsərlər qələmə alan tərəqqipərvər şairlərin meydana çıxmasını, İslam inqilabı nəticəsində şairlərin dünyagörüşünün dəyişməsini və bunun da ədəbiyyatda öz əksini tapmasını vurğulamışdır.

6. 27.03.2022 - “Qarabağda alban irsinin saxtalaşdırılması cəhdləri” mövzusunda elmi seminar.
   Məruzəçi : “İslamşünaslıq” Elmi Laboratoriyasının professoru Əsədilla Qurbanov.
   Xülasə : Məruzəçi olaraq bildirdi ki, Qarabağda tarixi-dini abidələrimizi, məscidlərimizi fars mədəniyyətinin nümunəsi kimi təqdim etməklə yanaşı, Azərbaycanın xristian irsinin də özününküləşdirilməsi məsələsi erməni saxtakarlığının mərkəzi hissəsini təşkil edir. Qarabağda Alban irsini mənimsəyib mahiyyətini dəyişməklə Azərbaycanı tarixi inkişafının mühüm dövründən məhrum edib, onun bu torpaqlarda kökünün olmadığını iddia etmək istəyən ermənilərin milli-mənəvi dəyərlərimizə, tarixi abidələrimizə qarşı törətdikləri cinayətlərin, vəhşiliklərin fonunda Avropa Parlamentinin Azərbaycan hökumətini “Dağlıq Qarabağda erməni mədəni irsini məhv etməkdə ittiham edən” qətnaməsi təəssüf doğurur. UNESCO təşkilatının Monitorinq qrupunun regiona səfəri baş tutmadan öncə yalnız erməni tərəfinin ötürdüyü saxta məlumatlara istinadən verilən bu qətnamə növbəti erməni təxribatı və erməni saxtakarlığına həmrəylik kimi qiymətləndirilməlidir. Bu qətnamənin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərimizdə erməni saxtakarlıqlarına, vəhşiliyinə məruz qalan tarixi-dini abidələrimizin bərpası, yenidən qurulması fərmanından sonra qəbul edilməsi düşmənin məkrli iddialarının davam etdiyini

və UNESCO-nun missiyası ərəfəsində ölkəmizə qarşı təhlükələrin, təxribatın hazırlanmasını göstərir.

7. 13.04.2022 - “Исследование структурно-грамматических категорий типов глаголов в китайском языке” mövzusunda elmi seminar.
   Məruzəçi : Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının müəllimi I.L.Fiqarova.
   Xülasə : Установлено, что из всех китайских глаголов выделены следующие типичные аспектуальные категории: совершенный аспект – глаголы со служебным словом 了, а также все результативные глаголы, длительный – глаголы со служебным словом 着, испытанный – глаголы со служебным словом 过 и кратковременный – удвоение глагола. В китайской грамматике аспектуальные значения передаются лексическими средствами, это и является одной из главных особенностей китайского языка. Разбор глаголов по их грамматическим функциям: 1) переходные глаголы 及物动词; 2) непереходные глаголы 不及物动词; 3) глаголы-связки 离合词, которые являются специфическими глаголами китайского языка. Основным объектом внимания является то, что китайские глаголы не изменяются по родам и числам и не спрягают по лицам.
8. 22.04.2022 – “Yapon dilində feilin icbar növünün müqayisəli tədqiqi” mövzusunda elmi seminar.
   Məruzəçi : Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının müəllimi Ş.M.Mirqədirova.
   Xülasə : Müəyyən edilmişdir ki, yapon dilinin də özünün spesifik dil qaydaları mövcuddur. Yəni bir qayda müxtəlif dillərdə müxtəlif cür özünü büruzə verir. Elmi seminarda geniş və aydın formada felin icbar növün düzəlmə qaydaları, onların işlənmə yerləri göstərilmişdir. Həmçinin Azərbaycan dili ilə aydın formada verilən müqayisəli izah məqalənin daha anlaşıqlı olmasına zəmin yaradır. Hər iki dilin oxşar cəhətləri olduğu kimi, fərqli cəhətləri də müzakirə olunmuşdur.
9. 25.04.2022 – “Urdu ədəbiyyatında Məhəmməd İqbalın yeri” mövzusunda elmi seminar.
   məruzəçi İran filologiyası kafedrasının baş müəllimi Aygün Aslan.

Xülasə : Məruzəçi qeyd etmişdir ki,Məhəmməd İqbal təkcə XIX-XX əsr Hindistan və Pakistan ədəbiyyatının, xüsusən bu ədəbiyyatın Urdu qolunun mütəfəkkir şəxsiyyəti deyil, ümum Şərq ədəbiyyatı kontekstində fərqlənən böyük sənətkardır. O, həm şair, həm filosof, həm də etiqad sahibi kimi islamın zəiflədiyi bir dövrdə İslam mühitində layiqli iz və irs qoymuş Şərqin bəşəriyyətə təqdim etdiyi dəyərli Şərq mütəfəkkiridir. Eyni zamanda, məruzə etmişdir ki, Məhəmməd İqbal XIX əsrin sonları, XX əsrin əvvəllərində yaşayıb-yaratmış mütəfəkkir ədiblərdəndir. O, çoxşaxəli yaradıcı kimi məşhurdur və bu cəhətdən Orta əsrlər Şərq poeziyasının ənənələrinə sadiqdir və fars, ərəb, urdu, ingilis, alman dillərində yazıb-yaratmışdır. O, Əfqanıstanda, Türkiyədə, Orta və Yaxın Şərq ölkələrində də, Avropada da olduqca məşhurdur. Təsadüfi deyildir ki, onun ədəbi və fəlsəfi-estetik irsi Pakistan və İrandan sonra, ən çox Türkiyədə öyrənilir, tədqiq edilir, əsərləri tərcümə olunaraq dəfələrlə nəşr edildiyi qeyd olunmuşdur. Məruzəçi mövzu ilə bağlı çıxış etdi. Urdu dilinin yaranma tarixi və Hindistanda urdu dilinin inkişaf istiqamətləri, Hindistanda nəşr olunan kitablar, elmi jurnallar haqqında məlumat verib. Bildirdi ki, urdu dili Hindistan rəsmi dillərindən biridir və urdu dilində müasir dövrün tələblərinə uyğun kitab və jurnallar çap olunmaqla yanaşı, elektron nəşrlər də öz aktuallığını qoruyub saxlamaqdadır.

10. 27.04.2022 – "Yapon dilində feil şəkillərinin struktur-qrammatik kateqoriyalarının araşdırılması" mövzusunda elmi seminar.

    Məruzəçi : Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının müəllimi N.Əhmədova.

    Xülasə : Yapon dilində feil şəkillərinin struktur-qrammatik kateqoriyalarının araşdırılması" mövzusu ilə bağlı təqdimat etdi. Əsas olaraq bildirdi ki, Azərbaycan və yapon dillərinin materialları əsasında feilin şəkilləri və kateqoriyalarında müəyyən oxşarlıq olsa vardır və yapon dilində feil şəkillərinin qrammatik kateqoriyaları araşdırmalara geniş material və maraqlı məlumat mövzusudur. Yapon dilində feilin şəkillərinin formaları, bir gədər Azərbaycan dili ilə oxşar olsa da, feilin ehtimal şəkli yapon dilində fərqlidir, və eləcə də, Azərbaycan dili ilə bir gədər oxşar olan feilin qadağa şəkli ます /*masu* formasının götürülüb, feilin lüğət formasına na—な sonluğu artırılaraq, bir gədər Azərbaycan dilindəki ma/mə, qadağa formasına oxsar cəhətləri vardır . Dilçilik nöqteyi-nəzərindən yapon dili Azərbaycan dili ilə həm feilin

cümlədəki yeri, həm də feil şəkilləri baxımından müəyyən oxşarlığı, həm də sait, samitlərin sözlərdə ahəng qanununa oxşar strukturu cəhətindən maraq yaradır. Həmçinin nəzakətli danışıq formalarında bəzi hallarda feil cümlədə fərqli formalarda, eləcə də əsasından dəyişərək işlədiləbilər. Təqdimatda feilin şəkillərini müəllif linqvistik araşdırmalarının nəticəsini cədvəl və sxemlərlə vermişdir.

11. 20.05.2022 – "Farsdilli nəsrin formalaşması mərhələləri" mövzusunda elmi seminar.

    Məruzəçi : İran filologiyası kafedrasının müəllimi, f.ü.f.d. Familə Nəcəfova.

    Xülasə : Məruzəçi qeyd etmişdir ki, Farsdilli ədəbiyyat qədim və zəngin tarixə malikdir. Bu ədəbiyyatın böyük bir hissəsini poeziya nümunələri təşkil edir. Fars poeziyası dünya ədəbiyyatı tarixinə Əbülqasım Firdovsi, Sədi Şirazi, Hafiz Şirazi, Ömər Xəyyam, Əbdürrəhman Cami kimi dahi şairlər bəxş edərək farsdilli ədəbiyyatın dünya ədəbiyyatının bir qolu kimi formalaşmasında əvəzsiz xidmət göstərmişdir. Lakin farsdilli ədəbiyyat təkcə poeziya nümunələrindən ibarət deyil. Belə ki, İran xalqının böyük bir epos yaradıcılığı olmuş, dastanlarda, nağıllarda, o cümlədən, orta əsrlərə məxsus nəsr əsərlərində xalqın tarixinin qəhrəmanlıq səhifələri, məişət problemləri, mifik-mistik dünyagörüşü, məhəbbət mövzusu öz əksini tapmışdır. Tədqiqatçılar farsdilli ədəbiyyat tarixini "Avesta" ilə bağlayırlar. İran mədəniyyəti tarixində Əhəmənilər dövrünə aid bütün dünyada mixi yazılar kimi məşhurlaşan abidələr, Sasanilər dövrünə aid Pəhləvi ədəbiyyatının nümunələri, orta əsrlərə aid islam dininin qəbulundan sonra qələmə alınmış elmi, macəra, didaktik, dini-mistik məzmunlu əsərlər və nəhayət XX əsrdən etibarən qərb ədəbiyyatından əxz edilmiş novella, povest, roman janrı farsdilli bədii nəsrin inkişaf mərhələlərini təşkil edir.

12. 27.05.2022 – Ümummmilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Şərq Filologiyası məsələləri" mövzusunda gənc alim və magistrantlarının respublika konfransı.

    Xülasə : Müstəqil Azərbaycanın qurucusu, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda təhsilin, elmin inkişafı istiqamətlərində önəmli işlər görülmüşdür. Heydər Əliyev Azərbaycanda rəhbərlik etdiyi bütün dönəmlərdə daima təhsilə, tərbiyəyə strateji sahə kimi baxmış, Vətənin, xalqın, gənc nəslin tərəqqisi yolunda təhsil və tərbiyənin əsas roluna yüksək qiymət vermişdir. Ümumiyyətlə təhsilin inkişafı hər bir ölkədə inkişaf

konsepsiyasının əsas tərkib hissəsidir. Bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev təhsilin inkişafına böyük diqqət və qayğı göstərir. Bakı Dövlət Universitetində təhsil alan gənclərin elmi-tədqiqat işinə cəlb olunması universitetimizin əsas vəzifələrindən biridir. Şərqşünaslıq fakültəsi magistrantların elmi-tədqiqat işlərinin aparmalarına xüsusi diqqət ayırır. Şərqşünaslıq fakültəsi Şərq ölkələrinin istər dili, tarixi, istərsə müasir ədəbi, ictimai-siyasi, fəlsəfi fikrinin öyrənilməsini daim diqqət mərkəzində saxlayıq. Bu sahələr üzrə ciddi tədqiqatlar aparırıq. Şərqşünaslıq fakültəsində magistr pilləsində təhsil alan magistrantların və araşdırma aparan gənc alimlərin tədqiqat işlərinin nəticəsi olaraq təhsil prosesində əldə etdikləri bilikləri tezislərdə əks etdirməsi məqsədilə Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Şərq filologiyası məsələləri" mövzusunda konfrnas da məhz bu məqsədə xidmət edir. Konfrans Şərqşünaslıq fakültəsində magistr pilləsində təhsil alan magistrantların və araşdırma aparan gənc alimlərin tədqiqat işlərinin nəticəsi olaraq təhsil prosesində əldə etdikləri bilikləri tezislərdə əks etdirməsi məqsədi daşıyır. Konfransda 1 bölmə üzrə (Dilçilik : ərəb, fars, türk, ibri, urdu, yapon; Ədəbiyyatşünaslıq : ərəb, fars, türk, yəhudi, yapon) məruzələr dinlənilmiş və müzakirə edilmişdir. Ümumi tezis sayı 28-dir.

13. 06.10.2022 - "Türk Dünyası və Qarabağ Zəfəri" mövzusunda elmi seminar.

    Məruzəçi : İqtisad Universitetinin Türk Dünyası – İqtisad fakültəsinin dekanı, professor Mehmet Yüce.

    Xülasə : Məruzəçi Türk dünyasının böyük bir mədəniyyətə malik coğrafi məkan olduğunu vurğuladı. Türk Dünyası dedikdə müstəqil dövlətlər, muxtar respublikalar, başqa ölkələrdə yaşayan türklər nəzərdə tutulduğunu qeyd etdi. Alim eyni zamanda türkdilli xalqların birliyindən, Türk dövlətləri ilə ictimai-siyasi və mədəni əlaqələrin daha da inkişaf etdirilməsinin əhəmiyyətli olduğundan danışdı. Mehmet Yüce Türk Dövlətlərinin iqtisadiyyatı, xüsusilə də sənayesinin müxtəlif sahələri haqqında da fikirlər səsləndirdi.

*14.* 17.10.2022 - "Fars dilinin fonetik xüsusiyyətlərindən doğan leksik vahidlər" mövzusunda elmi seminar.

    Məruzəçi : İran filologiyası kafedrasının dosenti Əsmətxanım Məmmədova.

    Xülasə : Məruzəçi bildirdi ki, ərəb əlifbasından istifadə edən fars dilində tələffüz və qrafikada müxtəlif çətinliklər əmələ gəlir və bu xüsusiyyət fars dilinin müxtəlif cür yazılıb eyni şəkildə tələffüz edilən (omofonlar) ; eyni cür

yazılıb müxtəlif şəkildə tələffüz edilən (omoqraflar)-ını formalaşdırır. Elmi seminarda tədrisə çətinlik törədən bu leksik vahidlər mövzusu aydınlaşdırılacaq.

15. 18.10.2022 **– "**İslamın yarandığı dövrdə Ərəb yarımadasının dini mənzərəsi" mövzusunda elmi seminar.

Məruzəçi : Ərəb filologiyası kafedrasının professoru Aida Qasımova.

Xülasə:İslamın yarandığı dövrdə Ərəb yarımadasının dini mənzərəsi".Mühazirəçi İslamın yarandığı dövrdə Ərəbistan yarımadasında dini təsəvvürlərin üç əsas istiqamətdə yayıldığını göstərdi: Monoteist düşüncə, dualizm və politeizm. Monoteizmin xristianlıq, yəhudilik, həniflik və sabilik şəklində təzahürünü vurğulayan məruzəçi Ərəbistan yarımadasındakı spesifik xüsusiyyətlərini və hakim ideologiyaya çevrilə bilməsinin səbəblərini açıqladı. Mühazirədə ərəblərin odla bağlı inanc və etiqadları iki müstəvidə - sırf ərəb adətləri və zərdüştlik dini ilə bağlı etiqad sistemi olaraq açıqlandı. Mühazirədə islamın yarandığı ərəfədə politeizmin böhran içərisində olması xüsusi vurğulandı.

16. 18.10.2022 – "Bakı Dövlət Universitetində Çin dilinin tədrisinin cari vəziyyətinin analizi və perspektivləri" mövzusunda elmi seminar.

Məruzəçi : Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasının müəllimi, ÇXR-dən müqavilə əsasında ezam olunmuş, Çin Beynəlxalq Təhsil və Əməkdaşlıq Fondunun Çin dili mütəxəssisi Yeerlan Azhati.

Xülasə : Seminarın məzmunu Yeerlan Azhatinin Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasında birillik tədris fəaliyyətinin analizinə və təcrübə mübadiləsinə həsr olunmuşdur. Analizin tənqidi qeydləri: Çin dilinə - İxtisas fənninə auditoriya saatının kəskin azalması (illik 300 saatdan 150 saat olması), yerli müəllimin Çin dili səviyyəsinin qənaətbəxş olmaması, tələbələrin dərslərə böyük həvəs göstərməməsi, auditoriyanın yaponşünaslıq ixtisası ilə müqayisədə aşağı səviyyədə olması.

Təkliflər: ÇİN dili dərslərinin auditoriya saatlarının illik 150 saatdan 300 saata qaldırılması, yerli Çin dili müəllimlərinin Çinə ixtisasartırma kurslarına göndərilməsi, tələbələrin imtahanlarının ixtisas müəllimləri tərəfindən aparılması, Çin dili auditoriyasını Yaponşünaslıq ixtisasının auditoriyası kimi təmir və təchiz etməli.

Məruzəçi bütün göstərilənlərin həyata keçirilməsi nəticəsində tədrisdə əsaslı müsbət dəyişiklərin olacağına əminliyini bildirdi.

17. 31.10.2022 – “Müasir türk və ispan dillərindəki frazeoloji birləşmələrin qrammatik və leksik-semantik xüsusiyyətləri ” mövzusunda elmi seminar.

Məruzəçi :Türk filologiyası kafedrasının baş müəllimi fəüəfədə Nərminə Məmmədova.

Xülasə : Mühazirəçi müqayisəli frazeologiyanın müasir dilçilikdə ən aktual məsələlərdən biri olduğunu vurğuladı. İspan və türk dilləri kimi həm tipoloji, həm də genealoji baxımdan bir-birindən tamamən fərqli olan dillərin frazeoloji sistemlərinin müqayisəli təhlilinin böyük maraq doğurduğunu qeyd etdi. Müasir türk və ispan dillərinin frazeoloji birləşmələrinin iki və ya daha çox sözün birləşməsi əsasında təşəkkül tapdığını nümunələrlə izah etdi.

18. 15-6.11.2022 – Şərqşünas-alim V.Məmmədəliyebin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş “Şərqşünaslıq: yeni istiqamətlər” mövzusunda respublika elmi konfransı.

Xülasə:

19. 18.11.2022 – **“**KİV-nin dil xüsusiyyətləri**”** mövzusunda elmi seminar.

Məruzəçi : İran filologiyası kafedrasının müəllimi Şahin Yusifli.

Xülasə : Tədqiqatçı KİV-də formalaşan əsas struktur modellər, mediada təkrarlanan feillər, mürəkkəb cümlə formaları, dildə yaranan özləşmə meyilləri, terminlərin unifikasiyası və digər mətləblər barədə söz açıb.

Məruzədə fars dilinin mediada formalaşan üslubu üzrə nümunələr əsasında izahlar verilib. Dildə gedən dəyişikliklərə toxunulub. Bu nümunələr arasında feillərin əvəzlənməsi, aralı formada istifadəsi, bəzi feillərin istiqamətinin dəyişməsi barədə müddəalar səsləndirilib. Qəzet-publisistik üslubun xarakterik cəhətləri, tələbərin qarşılaşmadığı formalar üzrə fikirlər söylənilib.

20. 24.11.2022 – *“Yaşar Kamalın əsərlərində qadın obrazları* ” mövzusunda elmi seminar.

Məruzəçi :Türk filologiyası kafedrasının müəllimi Həyat Məmmədova.

Xülasə : Seminarda Yaşar Kamalın üç əsərindəki üç qadın obrazından: qadın – həyat yoldaşı, qadın – ana və qadın – sevgili obrazlarından söhbət açılır. İlk bəhs edilən qadın obrazı Yaşar Kamalı həm“Yaşar Kamalın yaradıcılığında qadın Türkiyədə, həm də dünya ədəbiyyatında tanıtdıran dörd cildlik “İncə Məmməd” romanının qəhrəmanı İncə Məmmədin həyat yoldaşı Xədicə obrazıdır. Məruzəçi tədqiqat işində Xədicə ilə Məmmədin məhəbbətindən,

sevgi hekayəsindən, Xədicənin sevgisi uğrunda mübarizəsindən danışdı. Haqqında danışdığı ikinci obraz Yaşar Kamalın “İlanı öldürsələr” əsərindəki Esme obrazıdır. Bir qadın, bir ana olaraq Esmenin fədakarlığı, susqunluğu və cəmiyyət tərəfindən ona göstərilən təzyiq nəticəsində oğlunun onu qətlə yetirməsi mövzumuzun obyekti kimi qeyd olunmuşdur. Məruzəçinin söhbət açdığı üçüncü qadın personajı “Ağrıdağı əfsanəsi” romanındakı Gülbahardır. Bu əsər timsalında xan qızı Gülbaharla çoban Əhmədin dillərə dastan olan məhəbbəti və Gülbaharın bu sevgi uğrunda göstərdiyi fədakarlıqlar təsvir olunur.

21. 14-14.12.2022 – Şərqşünaslıq fakültəsinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş “Azərbaycan şərqşünaslığı Şərq-Qərb elmi-mədəni və ictimai-siyasi dialoqu kontekstində” “ mövzusunda beynəlxalq elmi konfrans.

Xülasə : Şərqşünaslıq fakültəsinin yaranmasının 100 illik yubileyinin keçirilməsi Azərbaycanda və eləcə də dünya şərqşünaslığında şərqşünaslığın tədrisi, tədqiqi və təbliği istiqamətində yeni imkanlar açır. Yubiley münasibəti ilə təşkil ediləcək beynəlxalq elmi konfrans dünya Şərqşünaslığının bütün mühim istiqamətləri üzrə, yeni təfəkkür və yanaşmalar əsasında müzakirələri nəzərdə tutulmuşdur. Konfransın respublikada şərqşünaslığın tədrisi və elminin inkişafına yeni təkan verəcəyi, beynəlxalq əlaqələrin güclənməsinə ciddi təsir göstərəcəkdir.

Beynəlxalq elmi konfransa 6 ölkədən 18 iş konfrans materiallarında öz əksini tapıb. Konfransda 2 gün ərzində 4 bölmə üzrə (Dilçilik : ərəb, fars, türk, ibri, urdu, yapon, çin, Koreya; Ədəbiyyatşünaslıq : ərəb, fars, türk, yəhudi, urdu, yapon, çin, Koreya; Tarix, Fəlsəfə və Sosiologiya) məruzələr dinlənilmiş və müzakirə edilmişdir. Konfransa 14 nəfər dünyanın müxtəlif ölkələrindən iştirakçılar gəlmişdir. Onlardan 3 nəfəri Bakı Dövlət Universitetin, 3 nəfər konfransın həmtəşkilatçısı Beynəlxalq Türk Mədəbiyyəti və İrsi Fondunun maliyyəsi hesabına gəlmişdir. Xarici ölkələrdən gəlmiş digər 8 nəfər (7 nəfər Özbəkistan və 1 nəfər Qazaxıstan vətəndaşı olmaqla) gəliş, gediş və otel xərcləri öz hesablarına olmaqla konfransda iştirak etmişdirKonfransa dəvət olunmuş xarici qonaqlarla onların təmsil etdikləri universitetlərlə əməkdaşlığlın inkişaf etdirilməsi istiqamətində proqramdan kənar bir sıra görüşlər keçirilmişdir. Şərqşünaslıq fakultəsinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş “ Azərbaycan Şərqşünaslığı Şərq-Qərb elmi-mədəni və ictimai–siyasi dialoqu kontekstində” mövzusunda beynəlxalq elmi konfransında türk dili və ədəbiyyatının araşdırılması istiqamətində bir çox maraqlı elmi işlər işıqlandırıldı. Konfransa təqdim olunan elmi məruzələr türk dilinin fonetikası, morfologiyası və sintaksisinin

araşdırılmasıyla bağlı ən son araşdırmaların ümumi mənzərəsini yaratmış oldu. Türk ədəbiyyatının müxtəlif dövrləriylə bağlı elmi məruzələr konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılandı. “ Ortak Türkçenin oluşmasında ortak alfabenin yeri”, “ Türk devlet ve topluluklarında ortak iletişim dili sorunu”, “ Avropada türkoloji mərkəzlər və müasir türkologiyanın əsas vəzifələri” məruzələrində son dövr türkdilli ölkələr qarşısında duran ortaq Türk dilinin formalaşdırılması və Türkiyə Türkcəsinin dıgər türk dillərindən də uğurlu alınmalar hesabına bu funksiyanı daşıya bilmə perspektivləri araşdırılmış, türk xalqlarının tarixi və mədəniyyətinin öyrənilməsi, mədəniyyətlərarası kommunikasiyanın genişləndirilməsi məsələlərinə toxunulmuşdur. “ Qarabağ savaşı Türkiyə mətbuatında”, “ Türk və Azərbaycan dillərinin bir-birinə yaxınlığından irəli gələn qardaşlıq anlayışları- Bir millət, iki dövlət”məruzələrində Türk dünyasının böyük şəxsiyyətləri Atatürk və Heydər Əliyev, iki qardaş dövlətin prezidentləri R.T.Erdoğan və İlham Əliyevin dil xüsusiyyətləri rəsmi üslub çərçivəsində araşdırılmış, rəsmi üslubun formalaşmasında şəxsiyyət faktorunun təsiri müəyyənləşdirilmiş, 44 günlük Vətən müharibəsində “ Sabah”, “Vatan”, “Yeni Şafak”, “Hürriyet” və digər mətbuat organlarının fəaliyyəti təhlil edilmişdir. Konfransda ərəb, fars, urdu, ibri dillərinin qrammatikası ilə bağlı yeni tədqiqatlar da işıqlandırılmışdır. Nizami Gəncəvi yaradıcılığının tədqiqi konfransın tədqiqat mövzusu olmuşdur. Konfransda şərqşünaslıq sahəsində aktuallığına görə aşağıdakı elmi istiqamətlərin daha çox əhəmiyyət kəsb etməsi və bu sahələrin dünya alimləri tərəfindən daha vacibli tədqiqatların aparılmasını tələb edir: Azərbaycan dövlətinin müxtəlif səviyyəli elmi konfrans və tədbirlərdə milli ənənələrin müdafiəsi, elm sahəsinin inkişafında özünü təsdiqləməsi haqqında həyata keçirdiyi tədbirlər dövrümüzdə aktual məsələlər sırasında yer almış problemlərdən biridir. Ölkəmizin tanınmış və gənc alimlərinin, elm sahəsində çalışan mütəxəssislərin, o cümlədən, xarici universitetlərdən qonaq qismində iştirakinin təşkil edildiyi şərqşünas alimlərin Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin 100 illiyinə həsr edilmiş beynəlxalq konfrans mədəniyyətlərarası münasibətlərin nə qədər aktual bir məsələ olması faktını bir daha ortaya qoydu. “Azərbaycan şərqşünaslığı şərq-qərb elmi-mədəni və ictimai-siyasi dialoq kontekstində” adlandırılan konfrans qloballaşan müasir dünyamızda beynəlxalq səviyyədə elmi-mədəni dialoqun qurulması istiqamətində həyata keçirilmiş vacib tədbirlərdən biri kimi doğma universitetimizin tarixi yaddaşında həkk olundu. Konfransda bir çox alim və elm sahəsində çalışan mütəxəssislərin ölkənin aparıcı elm ocağının kürsüsündə səsləndirdiyi Dilçilik, Ədəbiyyat, Tarix və Fəlsəfə bölmələrinə əsasən təsnif edilmiş müxtəlif aktual mövzulara həsr edilmiş məruzələri onların müəlliflərinin milli və bəşəri elmi-mədəni dəyərlərin əhəmiyyətinə dair fikirlərinin orijinallığı və yeniliyi ilə yadda qaldı. Konfrans boyunca türkdilli ölkələrin elm adamlarının birgə fəaliyyəti və

ünsiyyəti gələcək birgə əməkdaşlığın əsasını qoydu və bu iş birliyinin böyük Türk dünyasına töhfələr verəcəyinə inanırıq.

2021-2022-ci tədris ilində təhsil alan magistrantlar aşağıdakı ixtisaslar üzrə qeyd olunan mövzularda tədqiqat işi üzərində çalışırlar. Elmi-tədqiqat işləri ilə bağlı mütəmadi olaraq elmi seminarda, konfranslarda iştirak edir, məqalələr, tezislər çap etdirirlər.

| № | İxtisaslaşma | Mövzu |
|---|---|---|
| 1 | Dilşünaslıq (ərəb dili) | Ərəb əlyazmaları və ərəb əlyazma ənənəsi |
| 2 | Dilşünaslıq (ərəb dili) | Əbulbərəkat ibn əl Ənbarinin “əl-İnsaf fi məsail əl-xilaf bəynə əl-bəsriyyinə va əl-kufiyyinə” əsəri |
| 3 | Dilşünaslıq (ərəb dili) | Quranda sinonimiya məsələsi |
| 4 | Dilşünaslıq (fars dili) | Fars dilində vasitəsiz tamamlıq və mürəkkəb feillər |
| 5 | Dilşünaslıq (fars dili) | Müasir fars dilinin frazeoloji sistemi |
| 6 | Dilşünaslıq (fars dili) | Fars dilində mürəkkəb isimlərin quruluş modelləri |
| 7 | Dilşünaslıq (fars dili) | Nizami Gəncəvi “Sirlər Xəzinəsi”ndə qoşma və bağlayıcılar (struktur-semantik xüsusiyyətləri) |
| 8 | Dilşünaslıq (ibri dili) | Müasir ibri dilində hərbi texnologiyanın yaranma üsulları və dilin lüğət tərkibində |
| 9 | Dilşünaslıq (türk dili) | Müasir Türk ədəbi dilində sadə cümlənin növləri |
| 10 | Dilşünaslıq (yapon dili) | Yapon dilində zamanın tədqiqi xüsusiyyətləri |
| 11 | Ədəbiyyatşünaslıq (fars ədəbiyyatı) | Rzaqulu xan Hidayətin həyat yolu və bədii irsi |
| 12 | Ədəbiyyatşünaslıq (Yəhudi ədəbiyyatı) | XX əsrin ikinci yarısında yəhudi ədəbiyyatında müharibə mövzusu |

2022-2023-cü tədris ilində təhsil alan magistrantlar aşağıdakı ixtisaslar üzrə qeyd olunan mövzularda tədqiqat işi üzərində çalışırlar. Elmi-tədqiqat işləri ilə bağlı mütəmadi olaraq elmi seminarda, konfranslarda iştirak edir, məqalələr, tezislər çap etdirirlər.

| № | İxtisaslaşma | Mövzu |
|---|---|---|
| 1 | Dilşünaslıq (ərəb dili) | Ərəb ədəbi dilində siyasi terminlərin linqvistik xüsusiyyətləri |
| 2 | Dilşünaslıq (ərəb dili) | Zəməxşəri və onun “əl-Qistas fi-l-əruz” əsəri |
| 3 | Dilşünaslıq (ərəb dili) | Ərəb ədəbi dilində köməkçi nitq hissələri |
| 4 | Dilşünaslıq (ərəb dili) | Ğanim Qədyuri əl-Həmədin “İlm əl-kitabə əl-arabiyyə” əsəri. |
| 5 | Dilşünaslıq (ərəb dili) | Xətib Təbrizi və onun “Kitab-əlkafi fi elmi-l-əruz va-l- |

| | | |
|---|---|---|
| | | qavafi" əsəri |
| 6 | Dilşünaslıq (ərəbdili) | Ərəb ədəbi dilində yiyəlik hal və onun ifadə formaları. |
| 7 | Dilşünaslıq (fars dili) | Nizami "Xəmsə"sində leksik vahidlər (omoqraflar). |
| 8 | Dilşünaslıq (fars dili) | Nəsiminin divanında fars mənşəli sözlər. |
| 9 | Dilşünaslıq (yapon dili) | Azərbaycan və yapon dillərində feilin valentliyinin müqayisəli şəkildə tədqiqi. |
| 10 | Dilşünaslıq (ərəb ədəbiyyatı) | Qurani Kərimdə Yusif peyğəmbərin qissəsi və onun klassik Azərbaycan ədəbiyyatında əksi |
| 11 | Ədəbiyyatşünaslıq (fars ədəbiyyatı) | Məsud Səəd Salman divanı klassik yaradıcılıq modeli kimi |

Müasir dünyanın elmi-texniki tərəqqinin zirvəsinə doğru irəliləməsi biz, ali məktəb işçiləri qarşısında yeni, möhtəşəm məsələlər qoyur ki, onların həlli dövlətimizi güclü, həyatımızı firavan edəcəkdir. Bu sahədə görüləcək işləri daha mütəşəkkil həyata keçirmək lazımdır.